ədalət.-2018.-4 aprel.-S.8.



Güloğlan Dünya

## Kəndim

Sənnən ayrı düşüb, yiyəsiz qaldım,
Hər gün qəhərləndim, hər gün ağladım.
Yenə umudumu sənə bağladım,
Axı hər əməlim, diləyim səndə.

Sanma ki mən səni qoyub qaçmışam,
Quştək pərvazlanıb, uzaqlaşmışam.
Axı mən qoynunda çiçək açmışam,
Soy kököm, beşiyim, bələyim səndə.

Bir vaxt hər işimdə mən baş olmuşam,
İndi qəribliyə sirdaş olmuşam.
Qanadı qırılmış bir quş olmuşam,
Qalıb qol-qanadım, lələyim səndə.

Səndədir həyatım, səndədir yönüm,
Səndədir sevincim, imanım-dinim.
Gəl mənə arxa dur, mən sənə dönüm,
Qalıb ruhum-gözüm, ürəyim səndə.

## Ürəyim

Gülüm, gülüşünü görməyəndə mən,
Meylini dərd-qəmə salır ürəyim.
Mənə bax, hər dəfə səni görəndə,
Gör necə bəxtiyar olur ürəyim.

Amandı, üzüləm gəl durma gendə,
Qəm-qüssəm azalır səni görəndə.
Yanağın allanıb, üzün güləndə,
Sevincdən kövrəlir-dolur ürəyim.

Könül istəyimiz bizi edib tən,
Yeganə sevgilim sən olmusan, sən.
Bir anlıq mən uzaq düşsəm də səndən,
Yenə də yanında qalır ürəyim.

Könül ver, ürəyim dərd-qəmlə dolub,
Yarım ol, gözlərim yollarda qalıb.
Saf eşqin ruhumun yiyəsi olub,
Daim sənlə nəfəs alır ürəyim.

## Yaxşılar

Vətənimi yağılardan qoruyub,
El qədrini bilənlərdir yaxşılar.
El-obanın hər işinə yarayıb,
Hər vaxt kara gələnlərdi yaxşılar.

Əzəl gündən elinə bel bağlayıb,
Elin sevib, tərəfini saxlayıb.
Pis günündə hüzur tutub, ağlayıb,
Xoş günündə gülənlərdi yaxşılar.

Sərvətinə göz dikməyir heç kimin,
Qaçqın görcək unudur öz dərd-qəmin.
Dərd içində itib-batan kimsənin,
Göz yaşını silənlərdi yaxşılar.

Hər vaxt işin görər ağılla-başla,
Qonaq-qarasını qarşılar aşla.
İstiqanlı qohumla, dost-tanışla,
Sevincini bölənlərdi yaxşılar.

Hər igiddən ad alıb, güc qoparıb,
Cavanları arxasınca aparıb.
Hər möhnətə-dərdə çözüm axtarıb,
Bir araya gələnlərdi yaxşılar.

Gecə-gündüz külüng vurub, çalışıb,
Hər əzaba, bərkə-başa alışıb.
Yurdu işğal edənlərlə savaşıb,
Haqq yolunda ölənlərdi yaxşılar.

## Döndüm

Birazca dolaşdım Vana dağını,
Könlümü mən ona açmamış döndüm.
Hələ yamaclarda qışın qarı var,
Sızqa çeşmələri daşmamış döndüm.

Seyrinə mən daldım xallı güşənin,
Talasında yatdım zümrüd meşənin.
Adayı olduğum tər bənövşənin,
Təzə-tər qönçəsi açmamış döndüm.

İntizar qayıtdım bərədə kəldən,
Oylaqda tərlandan, zirvədə tüldən.
Bir əsər görmədim yaylaqda eldən,
El-oba yaylağa köçməmiş döndüm.

Vuruldum dağların əzəmətinə,
Yaşıl yamacına, naz-nemətinə.
Qucağın açsa da yaylaqlar mənə,
Vüsal şərbətini içməmiş döndüm.

Alışdım ətirli laləsinə mən,
Döndüm ən istəkli balasına mən.
Yolumu salsam da qalasına mən,
Üçrəngli bayrağı sancmamış döndüm.

Güloğlan, yolumdan dönməm ölsəm də,
Düz ilqar yaratdı o dağlar məndə.
Görüb gülüzünü cuşa gəlsəm də,
Şəninə şeirlər qoşmamış döndüm.

## Ey gülüm

Al yanağın sanki təzə-tər çiçək,
Üzün-gözün işıq saçır günəştək.
Haqq yaratmır hər vaxt sənin tək göyçək,
Elə bil su sonasısan, ey gülüm.

Yaz baxışın qış ömrümə nur saçıb,
Tər bağçamın fidanı da gül açıb.
Məhəbbətin xoş günümə yol açıb,
Xoş günümün binasısan, ey gülüm.

Əzəl gündən mən olmuşam heyranın,
Hər bir gecə qonağısan röyamın.
İntizarlı qərib könül dünyamın,
Al günəşli səmasısan, ey gülüm.

Sənsiz keçib neçə ayı ilimin,
İtib-batıb, dadı-duzu əlimin.
Od-alovlu, sazlı-sözlü dilimin,
Xoş avazlı sədasısan, ey gülüm.

Qəlbin sevib-sevilməkdi peşəsi,
Məhəbbətdi coşub-daşan çeşməsi.
Xoş günümün dadı-duzu, nəşəsi,
Həyatımın mənasısan, ey gülüm.

## Ana

Sevdiyi kəslərlə mehriban, əziz,
Gəlişi uğurlu, bişmişi ləziz.
Pərvanə bulaqtək dupduru, təmiz,
Mavi göylər kimi durusan, ana.

Məni soraqlayıb, mənnən söz açan,
Sevincli günümdə quş kimi uçan.
Bəxt-tale yoluma gur işıq saçan,
İlıq yaz günümün nurusan, ana.

Ömür köhlənini dördəmə sürən,
Eşqiylə qəlblərdə mərhəmət hörən.
Mənəvi dünyamı zənginləşdirən,
Tanrı sirdaşısan, yarısan, ana.

Məni naz içində böyütmüsən sən,
Hər bitməz işimə sən olmusan tən.
Həyat bağçamıza yaraşıq verən,
Sevgi qönçəsinin barısan, ana.

Mən sənnən öyrəndim zəfərin çəmin,
Söylə, sənnən başqa kimim var mənim?
Yurdu viran olmuş yalqız qəlbimin,
Tükənməz sərvəti-varısan, ana.

## Axtarır

Bağın qoruyur oğrudan,
Mərhəmət umur doğrudan.
Onu zalımla qorxudan,
Yadı-yamanı axtarır.

Üzdə gözəl sözlər deyən,
Daldalarda hədələyən.
Uçuruma itələyən,
O bəd gümanı axtarır.

Əğyarı dərk edib, anan,
Dərdini öz dərdi sanan.
Öz-əhdi peymanın danan,
Qaşı kamanı axtarır.

Alın yazısını pozan,
Ona dərin quyu qazan.
Ölümünə fərman yazan,
O əl-amanı axtarır.